LAWELS

# SENTYABR AYINDA QANUNVERİCİLİYƏ EDİLƏN MÜHÜM DƏYİŞİKLİKLƏRİN XÜLASƏSİ

*Cari buraxılış –XVII, 05 oktyabr, 2021-ci il*

*LAWELS bloqunun Qanunvericilik yenilikləri buraxılışları Azərbaycan Respublikası qanunvericiliyinə edilən dəyişikliklər və digər yeniliklərin aylıq icmalı üzrə cari və xüsusi buraxılışları ehtiva edir.*

| Ana səhifə | Bütün buraxılışlar | Bizimlə əlaqə |
|---|---|---|

**1. “Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 noyabr tarixli 1691 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidenti Fərman imzaladı.**

Dəyişikliyə əsasən sahibkarlar tərəfindən 2018-ci il yanvarın 1-dən 2020-ci il dekabrın 31-dək banklardan manatla alınan kreditlərə hesablanmış faizlərə görə verilən subsidiyaların müddəti 2022-ci il dekabrın 31-dək uzadılmışdır.

Digər mühüm dəyişiklik isə fond tərəfindən verilən faiz subsidiyasının verilməsindən imtina olunması hallarına aşağıdakı yeni halın əlavə edilməsidir: *“5.6.4. faiz subsidiyasının verilməsi üçün müraciət olunan kredit bu Qaydanın 1.1-ci bəndinə əsasən Fondun Himayəçilik Şurasının müəyyən etdiyi iqtisadi fəaliyyət sahələrinə uyğun olmadıqda.”*

Daha ətraflı buradan tanış ola bilərsiniz.

**2. “Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidenti Fərman imzaladı.**

Fərmanla DOST Agentliyinin Nizamnaməsinə edilmiş dəyişikliklərdən biri odur ki, Agentliyin fəaliyyət istiqamətlərindən biri olan övladlığa götürmə sahəsində nizamnamə ilə müəyyən edilən vəzifələrin icrasını təmin etmək vəzifəsini artıq Agentlik həyata keçirməyəcək. Adıçəkilən Fərmanla bu vəzifə Agentlikdən alınmışdır.

Nizamnaməyə dilən digər mühüm dəyişiklik isə Agentliyin vəzifələrində olmuşdur. Belə ki, Agentliyin vəzifələrinə “DOST” mərkəzlərində göstərilən xidmətlərlə əlaqədar monitorinqlər aparmaq, qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə əməkdaşlıq etmək kimi vəzifələr əlavə olunmuşdur.

Eyni zamanda fərmanla “DOST” mərkəzlərində göstərilən xidmətlərin siyahısı”nda aşağıdakı xidmətlər də əlavə olunmuşdur:

1. əmək qanunvericiliyinin pozulmasına dair müraciətlərin qəbul edilməsi;
2. mediasiya xidmətlərinin təşkili.

Daha ətraflı buradan tanış ola bilərsiniz.

**3. “Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası”nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Fərman imzaladı**

Dəyişikliyə əsasən, bitkiçilik sahəsi üzrə subsidiyalarda istifadəsində olan 10 hektar və daha çox torpaq sahəsində Aqrar Subsidiya Şurasının təsdiq etdiyi siyahıya daxil edilmiş sığortalanmalı olan bitkinin becərilməsinə görə əkin subsidiyası yalnız sığorta müqaviləsi bağlandıqdan sonra veriləcək.

Digər mühüm yenilik isə əkin əmsalı ilə bağlıdır. Belə ki, əkin əmsalı Şura tərəfindən müəyyən edilərəkən əkin sahəsinin (sahələrinin) həcmi də nəzərə alınacaq.

Növbəti dəyişiklik isə fermerlər tərəfindən bitkiçilik sahəsi üzrə subsidiyaları almaq “Subsidiya” informasiya sisteminə daxil etdikləri məlumatlarla bağlıdır. Fərmana əsasən, fermerlər sığortalanmalı olan bitkilərə münasibətdə həmçinin sığorta müqaviləsinin nömrəsini də SİS-ə daxil etməlidirlər.

Daha ətraflı buradan tanış ola bilərsiniz.

**4. Nazirlər Kabineti "Xüsusi ehtiyat fondlarının yaradılmasına aid edilən məbləğlərin vergitutma məqsədləri üçün gəlirdən çıxılması Qaydası"nın təsdiq edilməsi barədə qərar imzaladı.**

"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1356-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən Nazirlər Kabinetinə üç ay müddətində, xüsusi ehtiyat fondlarının yaradılmasına aid edilən məbləğlərin vergitutma məqsədləri üçün gəlirdən çıxılması qaydasını təsdiq etmək tapşırılmışdır.

Bununla bağlı maliyyə ilinin nəticələrinin təsiri, bankların maliyyə vəziyyəti və dayanılıqlığı nəzərə alınmaqla, eləcə də fiskal siyasət məqsədləri üçün zəruri olan müddəalar nəzərə alınaraq, "Xüsusi ehtiyat fondlarının yaradılmasına aid edilən məbləğlərin vergitutma məqsədləri üçün gəlirdən çıxılması qaydasının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı hazırlanıb.

Daha ətraflı buradan tanış ola bilərsiniz.